**UOT 76**

*Sevinc Vəliyeva*
*AMEA Memarlıq və İncəsənət*
*İnstitutunun dissertantı*
*AZ 1143, Bakı, H.Cavid pr., 31*
*E-mail:* seva.ava.86@mail.ru

# MULTİKULTURAL TƏFƏKKÜRÜN KARİKATURA JANRINDA TƏCƏSSÜMÜ

**Xülasə**: Məqalədə ötən əsrin 60-70-ci illərində Azərbaycan karikatura sənətində mövcud olan beynəlxalq tematika multukulturalizm kontekstində nəzərdən keçirilir. Müəllif qeyd edir ki, həmin dövrdə Şərq xalqlarının milli-azadlıq mübarizəsi və müharibə qızışdırıcılarının ifşa edilməsi beynəlxalq tematikanın əsas mövzularından olmuşdur. Bu karikaturalarda multikultural məzmun özünü aydın büruzə verir. Həmçinin bunu da qeyd etmək vacibdir ki, üstündən təxminən yarım əsrlik vaxt keçməsinə baxmayaraq Azərbaycan karikaturaçılarının o dövrdə yaratdığı əsərlərin çoxusu bu gün də üç aktuallığını qoruyub saxlayır və müasir dövrdəki hadisələrlə səsləşir.

**Açar sözlər*:*** Azərbaycan təsviri sənəti, xarici tematika, karikatura, Ələkbər Zeynalov, Eduard Abdullayev.

Azərbaycan incəsənətinin əsas istiqamətlərindən biri də karikaturadır. Təsviri sənətin əsasənqrafika növündə çəkilən karikaturalar kəsərli mövzuları, süjetin və kompozisiyanın, obrazların və mimikanın satirik, gülüş doğuran xüsusiyyətləri ilə yadda qalır [1]. Azərbaycan incəsənətində satirik xarakterli rəsmlərin tarixi çox qədimdir. Hələ orta əsrlər dövrü miniatürlərində gülünc zahiri görkəmə malik (şişman və s.), satirik xarakterli surətlərə, rəsm nümunələrinə (siyah qələm texnikasında) rast gəlinir. XIX əsrin ikinci yarısından etibarən dövri mətbuatın genişlənməsi dünya miqyasında karikaturanın inkişafına və bir janr kimi formalaşmasına şərait yaratdı [2]. XX əsrin əvvəllərində Baki, Tiflis, İrəvan və digər şəhərlərdə nəşr olunan Azərbaycan satirik jurnalları (“Molla Nəsrəddin”, həmçinin “Babayi-Əmir”, “Kəlniyyət”, “Zənbur”, “Tuti”, “Məzəli” və s.) müasir tipli milli karikatura sənətinin meydana çıxmasına səbəb oldu [3, 278]. Ə.Əzimzadə, İ.Rotter, O.Şmerlinq, X.Musayev və başqalarının satirik rəsmləri karikatura sənətimizin yeni dövrdəki erkən qaynaqları hesab edilir. XX əsrin əvvəllərində karikaturanın əsas hədəfləri cəhalət, gerilik, dini fanatizm və s. idi. Eyni zamanda sosial-siyasi və beynəlxalq mövzularda da karikaturalar yaradılırdı [4, 46]. Çar üsuli-idarəsinin fitnəkar hərəkətləri, erməni-müsəlman qırğınına rəvac verən irticaçı qüvvələr, beynəlxalq imperializmin Osmanlı dövlətində, İranda, Hindistanda, Çində və başqa ölkələrdə yeritdiyi müstəmləkəçilik siyasəti kəskin satira atəşinə tutulurdu.

20-30-cu illər milli karikatura sənətinin inkişafa qədəm qoyduğu dövrdür. O dövrdə nəşr edilən qəzet və jurnallarda (“Yeni yol”, “İdarəmizin güzgüsü” və b.) müxtəlif mövzularda karikaturalar nəşr edilirdi. Ə.Əzimzadə ilə yanaşı, onun milli realist ənənələrini davam və inkişaf etdirən qrafik rəssamlar nəsli yetişdi ki, onların bir çoxu həm də karikatura sahəsində öz imkanlarını sınayırdı. Ə.Rzaquliyev, Q.Xalıqov, İ.Axundov, H.Əliyev, Ə.Hacıyev və başqa rəssamlar maraqlı karikatura nümunələri yaradırdılar. Bu karikaturalar içində mövzusu beynəlxalq həyatdan alınanları da az deyildi.

XX əsrin 40-cı illərinin sonu - 50-ci illərindən etibarən karikatura janrı yeni inkişaf mərhələsinə qədəm qoydu. Bu inkişaf bütövlükdə Azərbaycan təsviri sənətinin tərəqqisinin bir hissəsi olub müharibədən sonrakı həyatın tədricən öz axarına düşməsi, mədəni səviyyənin yüksəlməsi ilə əlaqədar idi. Həmin dövrdə karikaturanın əsas hədəfləri təsərrüfat sahəsindəki nöqsan və pozuntular, həmçinin mədəni gerilik, köhnəpərəstlik və s. idi. Digər tərəfdən beynəlxalq mövzulara da karikatura sənətində geniş yer verilirdi. Zənnimizcə, karikatura sahəsində multikulturalizm təzahürlərindən söz açarkən, ilk növbədə məhz beynəlxalq süjetlərə yer verilməlidir. Çünki dünya ölkələri və xalqlarının məruz qaldığı çətinlikləri sənətdə açıb göstərmək, məzlum xalqlar ilə həmrəylik nümayiş etdirmək həmin dövrdə (əsasən XX əsrin 50-80-ci illərində) Azərbaycan karikatura sənətində multikultural təfəkkürün bariz nümunəsi kimi dəyərləndirilməyə layiqdir. Bu sahədə "Kirpi" jurnalının böyük xidmətləri olmuşdur. "Jurnal ətrafına toplaşan karikaturaçılar nəslinin Nəcəfqulu İsmayılov, Hüseyn Əliyev, Vsevolod Ternavski, Ziya Kərimbəyli, Pyotr Şandin, Sadıq Şərifzadə, Ələkbər Zeynalov, Arif Ələsgərov, Adil Quliyev kimi nümayəndələri üzlərini bu sənətdə təsdiq edə bildilər" [5, 5].

Nəzərdən keçirilən dövr ərzində Azərbaycan karikaturasında multikulturalizm təmayülləri özünü daha çox aşağıdakı mövzularda əks etdirir:

- Beynəlxalq aləmdə müharibə qızışdırıcılarına qarşı mübarizə;
- Sülhün, əmin-amanlığın, tərki-silahın təbliği;
- Asiya, Afrika və Latın Amerikası xalqları ilə həmrəylik;
- Qarabağ hadisələrinin dünyanın diqqətinə çatdırılması;
- Azərbaycan müstəqilliyinin beynəlxalq miqyasda möhkəmlənməsi.

Qeyd olunan bu mövzular zaman etibarilə bir-birindən seçilir. Əgər birinci üç mövzu əsasən sovet dövrü üçün xarakterikdirsə, dördüncüsü SSRİ-nin süqutu və erkən müstəqillik dövrünə, sonuncusu isə əsasən müasir dövrə aiddir. Buradan aydın görünür ki, hər bir dövrün öz dünyagörüşünə uyğun, o dövr üçün aktual olan xarici tematikası vardır. Əlbəttə, karikatura sahəsində istənilən xarici mövzunu multikulturalizmin təzahürü kimi qəbul etmək olmaz. Zənnimizcə, multikultural mahiyyət əsasən qlobal təhlükələrin ifşası və dünya xalqları ilə həmrəylik mövzuları üçün daha xarakterikdir. Çünki burada həm bütövlükdə bəşəriyyətin taleyi üçün narahatlıq, həm də ayrı-ayrı xalqlarla dostluq, qardaşlıq həmrəylik ideyaları ifadə olunur. Multikulturalizm həm də humanizmdən qaynaqlanır. Məhz bu səbəbdən multikulturalizmi humanizm ideyalarından təcrid edilmiş halda təsəvvür etmək çətindir. Əks təqdirdə o, özünün əsas dəyərini – insani keyfiyyətini itirərdi. Bu baxımdan qeyd olunan mövzuların məhz multikultural xarakterə malik olması göz qabağındadır. Eyni zamanda Qarabağ və müstəqillik mövzuları ilə bağlı olan bir çox süjetlər də multikultural məzmuna malikdir. Əvvəla, onlarda separatçıların və onların havadarlarının ifşa edilməsi, dünya xalqlarının Azərbaycanın ədalətli mövqeyini dəstəkləməsi öz əksini tapır. İkincisi, bu karikaturaların (bu sıraya şarjları da əlavə etmək olar) xeyli hissəsi multikultural dəyərlərin yayıldığı müasir dövrdə işlənmişdir və bilavasitə bu dəyərlərin təbliğinə xidmət edir. Həm də bu rəsmlərdə müasir Azərbaycanın beynəlxalq aləmdəki nüfuzu özünəməxsus tərzdə əks olunur.

Maraqlıdır ki, V.Ternavski, A.Elçin, P.Şandin, R.Quliyev, Z.Kərimbəyli, Ə.Zeynalov kimi ixtisaslı karikaturaçılarla yanaşı O.Sadıqzadə, S.Şərifzadə, D.Kazımov kimi rəssamlar da karikaturaya müraciət edirdilər. Bu, həmin dövrdə karikaturanın cəmiyyətdə ciddi qəbul edilməsinin, mədəni həyatda tutduğu nüfuzlu mövqeyinin göstəricisi idi. Həmin dövrdə əsasən "Kirpi" jurnalında çap olunan karikaturalar həm beynəlxalq həyatın, həm də ölkənin, respublikanın həyatının güzgüsü kimi səciyyələndirilirdi [6].

Ötən əsrin əsas beynəlxalq mövzularından biri də sülh mövzusu olmuşdur. Azərbaycan rəssamları xüsusən 50-60-cı illərdə bu mövzuda çoxsaylı karikaturalar (onların bir qismi şarj və plakat xarakterlidir) işləmişdilər ki, bu da həmin dövrdəki beynəlxalq vəziyyətlə, Sovet dövlətinin bütün dünyada əks-səda doğurmuş sülh çağırışları ilə əlaqədar idi. A.Hacıyevin "Dünyaya sülh", O.Sadıqzadənin "Sülh cəbhəsi pəhləvanları", Q.Xalıqovun "Sülh uğrunda" və s. karikaturalar bu mövzudan qaynaqlanır.

A.Hacıyevin "Dünyaya sülh" adlı çağırış xarakterli karikaturası iki hissədən ibarətdir. Bunlardan biri plakat, digəri isə karikatura tiplidir. Birinci hissədə milyonlar – sülh uğrunda mübarizəyə qalxmış çoxsaylı insan kütləsi görünür. Rəssam burada əksər irqlərin, millətlərin təmsilçilərini təsvir etmişdir. Bunun üçün o, məharətlə hər millət üçün səciyyəvi olan üz quruluşunu, milli geyimləri əks etdirib. Belə ki, ön planda sarı saçlı, mavi gözlü, əynində qara rəngli iş kombinezonu olan gənc rus fəhləsi, onun yanında qətiyyətli baxışlarını irəliyə dikmiş ağ köynəkli qara dərili afrikalı, arxada isə əynində hərbi şinel,başında ulduzlu kepka olan çinli qızıl əsgər təsvir olunub. Əlbəttə, rəssam bu surətləri dövrün tələblərinə müvafiq olaraq seçmişdir. Lakin istənilən halda o, xalqların birliyi, həmrəyliyi ideyasını əldə rəhbər tutmuş və əsərdə məhz bunu göstərməyə çalışmışdır. Qeyd olunan üç surətdən başqa arxa planda onlarla, yüzlərlə insan görünür. Tablo demək olar ki, başdan-başa insan selindən ibarətdir. Arxa planda avropalı,

ərəb, asiyalı və digər surətlər diqqəti cəlb edir. Ağ əbaya bürünmüş, başı çalmalı, qarayanız ərəbin yanında əlini qətiyyətlə yuxarı qaldıraraq şüar deyən avropalı qadın, onun ətrafında isə müxtəlif görünüşlü və geyimli digər insanlar nəzərə çarpır. Bu geniş izdiham başı üzərində qırmızı parçalar üzərində müxtəlif dillərdə "sülh" sözü yazılmış, sülh göyərçini təsvir edilmiş plakatlar tutmuşdur. Əsərin ümumi ideyasını "milyonlar sülh istəyir" çağırışı təşkil edir ki, bu da o zamankı ideologiyanın təzahürüdür. Lakin bununla yanaşı, A.Hacıyev bir azərbaycanlı rəssam olaraq məhz dünya xalqlarının yanaşı addımlamasını, onların həmrəyliyini və özünün də onlara rəğbət bəslədiyini təcəssüm etdirmişdir. Bu isə həmin dövrdə bir məfhum kimi hələ formalaşmamış olan multikulturalizm təsəvvürlərinin çox bariz, ideya-bədii baxımdan mükəmməl nümunəsidir.

Yuxarıda əsərin iki hissədən ibarət olduğunu qeyd etmişdik. Əsərin karikatura xarakterli olması məhz ikinci hissədə oz əksini tapır. Burada tünd fonda yuxudan hövlnak oyanıb çarpayıda dikəlmiş, gözləri bərəlmiş, qorxudan rəngi yaşıla çalan birisi təsvir olunub. Onun əynindəki paltar ABŞ bayrağından ibarətdir. Rəssam bununla, o zamankı dillə desək, "Amerika imperializminin irticaçı simasını" əks etdirmək istəmişdir. Onun yanında əyinlərində qara frak olan, lakeyi xatırladan iki şəxs müti görkəmdə duraraq ona su, dərman uzadırlar. Onlardan birinin "Yuxuda nə görmüşsünüz ?" sualına qorxudan gözləri böyümüş adam "Milyonları !" deyə cavab verir. Burada milyonlar dedikdəkompozisiyanın üst hissəsindəki milyonlar – qətiyyətlə sülhün müdafiəsinə qalxmış çoxmilyonlu insan kütləsi, dünya xalqları nəzərdə tutulur. Beləcə rəssam, xalqların sülh uğrunda mübarizəsini həm plakat, həm də gülünc rəsm vasitəsilə ikili formada təsvir edib.

Maraqlıdır ki, müəllifin toxunduğu sülh mövzusu, aradan on illər keçməsinə baxmayaraq bu gün də aktualdır. Miqyasının, hədəfinin və coğrafiyasının xeyli dəyişilməsinə baxmayaraq hər an alovlana biləcək, dünyanın əksər ölkələrini ağuşuna ala biləcək müharibələr təhlükəsi, təəssüf ki, hələ də qalmaqdadır. Bunun qarşısını isə yalnız yaşadığımız qloballaşan dünyada xalqların qarşılıqlı etimadı, multikultural dəyərlərə hörmət edilməsi ilə almaq mümkündür. Bu mənada A.Hüseynovun yaşı yarım əsrdən artıq olan əsəri bu gün də aktual görünür və multikultural dəyərləri təsviri sənətdə əks etdirən əsərlərlə bir cərgədə dayanır.

Sülh mövzusu Oqtay Sadıqzadənin karikaturalarında əsas mövzulardan birini təşkil edir. Rəssamın sayca çox olmayan karikaturalarından biri "Sülh cəbhəsi qəhrəmanları" adlanır. Burada 50-60- cı illərdə karikatura janrına xas olan nəqledici mahiyyət özünü büruzə verir. Rəssam kompozisiyadakı satirik məzmunu tənqidedici yox, təlqinedici müstəvi üzərində qurmuşdur. Belə ki o, rəsmin əsasına XIX əsrin tanınmış rus rəssamı V.M.Vasnetsovun tarixi-nağıl janrında çəkilmiş məşhur "Üç bahadır" əsərinin kompozisiya quruluşunu qoymuşdur. Bu dəst-xətt 60-cı illər karikatura janrında geniş yayılmışdı vəböyük təlqinedici gücə malik idi. Rəssam həmin formadan məharətlə istifadə edə bilmişdir. Karikarurada ata minmiş üç əmək qəhrəmanı görünür. Onlar üç müxtəlif xalqı təmsil edirlər. Ortadakı atlı əyninə qəhvəyi rəngli iş kombinezonu geymiş (A.Hacıyevin "Dünyaya sülh" əsəri ilə müqayisə et – müəl.) sarısaçlı bir gəncdir; o, rus xalqını təmsil edir. Gəncin əlində inşaat işlərində istifadə olunan uzun taxta xətkeş vardır (bir növ orijinaldakı nizəni əvəz edir). Onun sol tərəfindəki atlı Çin zəhmətkeşlərini təcəssüm edən qıyıq gözlü, sadə görkəmli əməkçi gəncdir. O, sol əlində çertyoj çəkmək üçün istifadə olunan xətkeş tutmuşdur (orijinaldakı qılınc ilə eyni kompozisiya quruluşuna malikdir). Nəhayət, üçüncü surət müsəlman Şərqini təmsil edən, başında ağ çalma olan ərəb qiyafəli, qarabuğdayı, bığlı bir gəncdir. Onun da əlində inşaat çertyojunu xatırladan uzunsov kağız burması vardır. Arxa planda isə böyük tikinti- quruculuq işlərini əks etdirən görüntülər – qaldırıcı kranlar, tikintisi davam etdirilən uca binalar, Su Elektrik Stansiyası və s. görünür. Beləliklə müəllif V.M.Vasnetsovun məlum tablosunu müvəffəqiyyətlə təbdil edərək səmimi, düşündürücü gülüş doğuran, müxtəlif xalqların nümayəndələrini bir araya gətirən müsbət xarakterli karikatura nümunəsi yaratmışdır.

Q.Xalıqovun müəllifi olduğu "Sülh uğrunda" əsəri karikatura və plakat xüsusiyyətlərini özündə birləşdirir. Bu karikaturada Böyük Vətən müharibəsinin başlanğıc dövründə Kukrinikslər tərəfindən çəkilmiş, sonralar digər (B.Yefimov və başqaları) karikaturaçılar tərəfindən davam etdirilmiş dəst-xəttin təsiri duyulur. Belə ki, kompozisiyanın sağ tərəfindən uzanan qüdrətli əl (SSRİ-ni təmsil edir) sol tərəfdə görünən cılız davakarın (ABŞ-nın təcavüzkar hərbi-siyasi dairələrini bildirir) nazik taxtanı xatırladan qolundan möhkəm tutaraq qətiyyətlə onu sülhə vadar edir. Qüdrətli əlin saxladığı kağızda qırmızı hərflərlə "Sülh uğrunda" sözləri yazılmışdır. Karikaturadakı süjet və kompozisiya dəfələrlə işlənmişdir; ona görə də orijinal təsir bağışlamır. Rəsm bədii cəhətdən də qüvvətli deyil. Yalnız mövzu baxımından onu qənaətbəxş hesab etmək olar.

Ötən əsrin 50-60-cı illərində SSRİ ilə xarici ölkələr, ilk növbədə kapitalist ölkələri arasında təmas qurmaq asan deyildi. Bu iki cəmiyyət arasında dərin ideoloji qarşıdurma mövcud idi. Əlbəttə, bu qarşıdurma ilk növbədə Qərb ölkələrinə qarşı yönəlmişdi. Ona görə də rəssamlar xarici mövzuda

karikatura çəkərkən Şərq ölkələrinin təmsilçilərini qəhrəman, azadlıq uğrunda mübarizə aparan vətənpərvər kimi, Qərb nümayəndələrini isə əksinə, təcavüzkar, ədalı, özünü uca tutan “aristokrat” kimi təsvir edirdilər. Bu cəhət rəssamların şəxsi təşəbbüsü olmayıb dövrün ideoloji tələblərindən irəli gəlirdi. Bununla yanaşı o da qeyd olunmalıdır ki, həmin karikaturalarda əksər hallarda reallıq olduğu kimi göstərilir, sovet cəmiyyəti haqqında məhdud təsəvvürə malik xarici ölkə təmsilçilərinin sadəlövhlüyü satira atəşinə tutulurdu. Rəssam Ələkbər Zeynalovun işlədiyi karikatura məhz bu qəbildəndir. Əsərdə neft mədəni təsvir edilmişdir. Kompozisiyanın bir tərəfində biri qadın olmaqla üç azərbaycanlı neftçi, əks tərəfdə isə yenə də biri qadın olmaqla üç əcnəbi turist qruplaşdırılmışdır. Kompozisiyanın yuxarı hissəsində “Kommunist əməyi briqadasi” sözləri yazılmış lövhə nəzərə çarpır. Məlum olduğu kimi, 50- 60-cı illərdə əmək kollektivlərində belə briqadalar yaradılırdı və həmin briqadalar daha yaxşı əmək nəticələrinə nail olaraq başqalarına nümunə göstərirdilər. Belə briqadalarda əməyin məhsuldarlığı da yüksək olurdu. Bütün bunlardan xəbərsiz olan, Azərbaycan neftçilərinə dodaq büzən, onların səmimi qonaqpərvərliyinə şübhə ilə yanaşan xarici “qonaqlar” isə hər şeyi hərfi mənada qəbul edirlər. Lövhənin məzmununu onlara tərcümə etdikdə, “Yəqin ki, briqadada işləyənlərin hamısı kommunistdir” – deyə sadəlövh qənaətə gəlirlər. Karikatura da məhz belə adlanır.

Xarici mövzuda işlənmiş karikaturalar içərisində əxlaq-tərbiyə məsələləri də mühüm yer tutur. Məlumdur ki, ötən əsrin 60-70-ci illərində Qərb həyat tərzinə aludəçilik bəzi vətəndaşlar, xüsusən gənclər arasında az qala xəstəliyə çevrilmişdi. Xüsusən geyim, moda sahəsində geniş yayılmış bu üzdəniraq aludəçilik cəmiyyətin mənəvi təkamülünə mənfi təsir göstərir, maarifçi-tərbiyəvi işə zərər vururdu. Ona görə də “əşya xəstəliyinə”, “moda azarına” düçar olmuş bəzi insanların, o cümlədən gənclərin maariflənməsi günün vacib tələbləri siyahısına daxil idi. Təbii ki, bu sahədə böyük təsir gücünə malik olan karikatura sənəti xüsusi önəm daşıyırdı. Uzun illər “Kirpi” jurnalı ilə əməkdaşlıq etmiş görkəmli karikaturaçı-rəssam Eduard Abdullayevin “Nankor”adlı irihəcmli, çoxsüjetli kompozisiyası məhz bu problemin ifşasına həsr edilmişdir. Burada xarici həyat tərzinə, xarici mallara ifrat həvəs, kor-koranə aludəçilik satira atəşinə tutulur.

Müxtəlif süjetləri vahid bədii kompozisiyada birləşdirən bu rəsm əsərində xarici geyimlərə həvəs göstərən ədabazlar sağlam gülüş obyektinə çevrilir. Onların geydikləri xaricdə istehsal olunmuş, yöndəmsiz görünüşlü kostyum və koftalar təbii gülüş doğurur. Öz ölkəsini bəyənməyən, xalqının adət- ənənəsinə xor baxan, xarici moda jurnallarını hərisliklə vərəqləyən, anlaşılmaz musiqi sədaları altındarəqs edərək özünü gülünc vəziyyətə salan bir para insanlar əsərdə haqlı olaraq tənqid edilir. Onların hamısının adı birdir: Nankor! Çoxsüjetli kompozisiya elə bu adla da təqdim edilib.

Qəribə burasıdır ki, A.Hacıyevin dünya xalqlarını sülhə, həmrəyliyə səsləyən əsərləri kimi, E.Abdullayevin də təsvir edilən kompozisiyası on illər ərzində aktuallığını hifz edib saxlaya bilmişdir. Doğrudur, indi vaxtilə olduğu kimi mal, geyim qıtlığına təsadüf edilmir. Azərbaycan istehlakçısı dünyada istehsal olunan bütün sənaye məhsullarını, o cümlədən geyimləri heç bir çətinliklə üzləşmədən alıb istifadə edə bilər. Lakin vaxtilə rəssamın satira atəşinə tutduğu nankorlar bu gün də bizi əhatə edir. Təəssüf ki, sayları azalmayıb, hələ bəlkə bir qədər də artıb. Azərbaycan istehsalına xor baxan, mənşəyi, keyfiyyəti bilinməyən xarici mal ardınca qaçan, xarici həyat tərzini az qala göylərə qaldıran bu “mədəni” insanlarla hər gün üzləşirik. Ən təhlükəlisi isə budur ki, belələrində vətənpərvərlik hissi demək olar ki, sıfır səviyyəsindədir, onlar ətrafdakılara, xüsusən gənclərə pis nümunə göstərir, milli mentalitetimizi məhvə doğru sürükləyirlər. Bu mənada “Nankor” kompozisiyası, həmçinin bir çox digər satirik əsərlər bu gün də çox aktual səslənir.

Son olaraq bildirmək istəyirik ki, satirik rəssamlarımızın vaxtilə yaratdığı bir çox karikaturalar bu gün də maraqla qarşılanır və mənalı gülüşə səbəb olur.

**Ədəbiyyat:**

1. http://www.azerbaijans.com/content_220_az.html
2. https://777word.wordpress.com/2010/11/12/karikatura/
3. Əfəndiyev T.İ. Mədəniyyətdə tarixilik və müasirlik. Bakı, “Təhsil”, 2011.
4. Hacızadə B. Azərbaycanda karikaturanın inkişafı. Bakı, “Səda”, 2008.
5. Hacızadə B. Yüz illik karikatura tariximiz. Bakı, 2006.
6. http://modern.az/az/news/70532/#gsc.tab=0

**Севиндж Велиева**

**Отображение мультикультурного мышления в карикатурном жанре**

**Резюме**

В статье рассматриваются особенности международной тематики в карикатуре Азербайджана 60-70-х годов прошлого столетия в контексте мультикультурного мышления. Авторподчеркивает, что в тот период национально-освободительная борьба народов Востока и разоблачение преступных замыслов разжигателей войны являлись основными темами карикатуры на международную тематику. В них наглядно, хотя и в неназванном виде проявляется и мультикультурное содержание. Важно также отметить, что многие из этих работ по сей день не утратили актуальности и напоминают реалии сегодняшнего дня, хотя со времени их создания прошло около полувека.

**Ключевые слова:** Изобразительное искусство Азербайджана, зарубежная тематика, карикатура, Алекпер Зейналов, Эдуард Абдуллаев.

**Sevinj Valiyeva**

**Display of multicultural thinking in the caricature genre**

**Summary**

In the paper features of the international themes are considered in the caricature of Azerbaijan of the 60-70th years of the last century in the context of multicultural thinking. The author emphasizes thatat that time the national liberation struggle of the peoples of the East and the exposure of the felonious intentions of the warmongers were the main topic of the caricature on the international themes.

Although they are unnamed, they reflect multicultural content. It is also essential to mention that many of these works have not lost their relevance to this day and remind us today’s realities, althoughthey took about half a century since their creation.

**Keywords*:*** Fine art of Azerbaijan, foreign subjects, caricature, Alakpar Zeynalov, Eduard Abdullayev.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 16.10.2017 Məqalənin təkrar işlənməyə göndərilmə tarixi: 23.10.2017Məqalənin çapa qəbul olunma tarixi: 16.11.2017**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Afət Aslanova**
**ADMİU-nun Elmi Şurasının 21 dekabr 2017-ci il, 04 saylı qərarı ilə çap olunur**